# Azərbaycan Respublikası Prezidentinin Sərəncamları

2022-ci il

- Goranboy rayonunun Dəliməmmədli–Düzqışlaq–Bağçakürd–Dəyirmanlar–Azad–Nizami avtomobil yolunun tikintisi ilə bağlı əlavə tədbirlər haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı *(28 fevral 2022-ci il)*

- Şərqi Zəngəzur iqtisadi rayonuna daxil olan Zəngilan rayonunda Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəsinin təyin edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı *(4 may 2022-ci il)*

- Yevlax rayonunun Mingəçevir–Stansiya Mingəçevir–Bəhrəmtəpə (6 km)–Tanrıqulular avtomobil yolunun tikintisi ilə bağlı tədbirlər haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı *(7 may 2022-ci il)*

- Azərbaycan Respublikasının ərazisində modul tipli təhsil müəssisələrinin quraşdırılması işlərinin davam etdirilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı *(16 may 2022-ci il)*

- Füzuli Peşə Liseyinin binasının layihələndirilməsi və tikintisi ilə bağlı tədbirlər haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı *(20 may 2022-ci il)*

- Şuşa şəhərində Şuşa Real Məktəbinin binasının layihələndirilməsi və bərpası ilə bağlı tədbirlər haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı *(20 may 2022-ci il)*

**Goranboy rayonunun Dəliməmmədli–Düzqışlaq–Bağçakürd–Dəyirmanlar–Azad–Nizami avtomobil yolunun tikintisi ilə bağlı əlavə tədbirlər haqqında**

**Azərbaycan Respublikası Prezidentinin Sərəncamı**

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram**:

1. On dörd min nəfər əhalinin yaşadığı 6 yaşayış məntəqəsini birləşdirən Dəliməmmədli–Düzqışlaq–Bağçakürd–Dəyirmanlar–Azad–Nizami avtomobil yolunun tikintisinin başa çatdırılması məqsədilə "Azərbaycan Respublikasının 2022-ci il dövlət büdcəsində dövlət əsaslı vəsait qoyuluşu (investisiya xərcləri) üçün nəzərdə tutulan vəsaitin bölgüsü"nün 1.26.11-ci yarımbəndinə uyğun olaraq, Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinə 3,6 milyon (üç milyon altı yüz min) manat ayrılsın.

2. Azərbaycan Respublikasının Maliyyə Nazirliyi bu Sərəncamın 1-ci hissəsində göstərilən məbləğdə maliyyələşməni təmin etsin.

3. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

**İlham Əliyev**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, 28 fevral 2022-ci il

**Şərqi Zəngəzur iqtisadi rayonuna daxil olan Zəngilan rayonunda Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəsinin təyin edilməsi haqqında**

**Azərbaycan Respublikası Prezidentinin Sərəncamı**

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Vahid Rasim oğlu Hacıyev "Azərbaycan Respublikasında iqtisadi rayonların yeni bölgüsü haqqında" Azərbaycan Respublikası Prezidentinin 2021-ci il 7 iyul tarixli 1386 nömrəli Fərmanı ilə müəyyən edilmiş Şərqi Zəngəzur iqtisadi rayonuna daxil olan Zəngilan rayonunda Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəsi təyin edilsin.

**İlham Əliyev**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, 4 may 2022-ci il

**Yevlax rayonunun Mingəçevir–Stansiya Mingəçevir–Bəhrəmtəpə (6 km)–Tanrıqulular avtomobil yolunun tikintisi ilə bağlı tədbirlər haqqında**

**Azərbaycan Respublikası Prezidentinin Sərəncamı**

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram**:

1. Mingəçevir–Stansiya Mingəçevir–Bəhrəmtəpə (6 km)–Tanrıqulular avtomobil yolunun tikintisi məqsədilə "Azərbaycan Respublikasının 2022-ci il dövlət büdcəsində dövlət əsaslı vəsait qoyuluşu (investisiya xərcləri) üçün nəzərdə tutulan vəsaitin bölgüsü"nün 1.26.18-ci yarımbəndində göstərilmiş məbləğin 2,1 milyon (iki milyon bir yüz min) manatı Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinə ayrılsın.

2. Azərbaycan Respublikasının Maliyyə Nazirliyi bu Sərəncamın 1-ci hissəsində göstərilən məbləğdə maliyyələşməni təmin etsin.

3. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

**İlham Əliyev**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, 7 may 2022-ci il

## Azərbaycan Respublikasının ərazisində modul tipli təhsil müəssisələrinin quraşdırılması işlərinin davam etdirilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, Azərbaycan Respublikasında təhsil infrastrukturunun inkişaf etdirilməsi məqsədilə **qərara alıram:**

1. Azərbaycan Respublikasının ərazisində modul tipli təhsil müəssisələrinin quraşdırılması işlərinin davam etdirilməsi məqsədilə Azərbaycan Respublikası Prezidentinin 2022-ci il 10 fevral tarixli 3143 nömrəli Sərəncamı ilə təsdiq edilmiş “Azərbaycan Respublikasının 2022-ci il dövlət büdcəsində dövlət əsaslı vəsait qoyuluşu (investisiya xərcləri) üçün nəzərdə tutulan vəsaitin bölgüsü”nün 1.8.3-cü yarımbəndində nəzərdə tutulmuş 5,0 (beş) milyon manat bu Sərəncama əlavəyə uyğun olaraq Azərbaycan Respublikasının Təhsil Nazirliyinə ayrılsın.

2. Azərbaycan Respublikasının Maliyyə Nazirliyi bu Sərəncama əlavədə nəzərdə tutulmuş bölgüyə uyğun olaraq maliyyələşməni təmin etsin.

3. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

4. Bu Sərəncam imzalandığı gündən qüvvəyə minir.

**İlham Əliyev**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, 16 may 2022-ci il

*Azərbaycan Respublikası Prezidentinin*
*2022-ci il 16 may tarixli*
*Sərəncamına əlavə*

### Azərbaycan Respublikasının ərazisində quraşdırılması nəzərdə tutulan modul tipli məktəblərin siyahısı

| Sıra №-si | Tədbirin adı | Ayrılan vəsait (min manatla) | İcra müddəti |
|---|---|---|---|
| 1. | Astara rayonunun Diqo kəndində 56 şagird yerlik modul tipli ümumi orta məktəbin quraşdırılması | 285,0 | 2022 |
| 2. | Bərdə rayonunun Qaratəpə kəndində 20 şagird yerlik modul tipli ibtidai məktəbin quraşdırılması | 207,0 | 2022 |
| 3. | Biləsuvar rayonunun Əmənkənd kəndində 56 şagird yerlik modul tipli ümumi orta məktəbin quraşdırılması | 285,0 | 2022 |
| 4. | Cəlilabad rayonunun Vənlik kəndində 80 şagird yerlik modul tipli ümumi orta məktəbin quraşdırılması | 354,0 | 2022 |
| 5. | Cəlilabad rayonunun Söyüdlü kəndində 96 şagird yerlik modul tipli ümumi orta məktəbin quraşdırılması | 382,0 | 2022 |
| 6. | Cəlilabad rayonunun Həsənli kəndində 80 şagird yerlik modul tipli ümumi orta məktəbin quraşdırılması | 354,0 | 2022 |
| 7. | Xaçmaz rayonunun Mollabürhanlı kəndində 96 şagird yerlik modul tipli ümumi orta məktəbin quraşdırılması | 382,0 | 2022 |
| 8. | İsmayıllı rayonunun Çəmənli kəndində 80 şagird yerlik modul tipli ümumi orta məktəbin quraşdırılması | 354,0 | 2022 |
| 9. | İsmayıllı rayonunun Zərnava kəndində 80 şagird yerlik modul tipli tam orta məktəbin quraşdırılması | 354,0 | 2022 |
| 10. | Quba rayonunun Qələdüz kəndində 132 şagird yerlik modul tipli ümumi orta məktəbin quraşdırılması | 424,0 | 2022 |

| | | | |
|---|---|---|---|
| 11. | Lerik rayonunun Kəlvəz kəndində 56 şagird yerlik modul tipli tam orta məktəbin quraşdırılması | 285,0 | 2022 |
| 12. | Lerik rayonunun Anburdərə kəndində 56 şagird yerlik modul tipli ümumi orta məktəbin quraşdırılması | 285,0 | 2022 |
| 13. | Neftçala rayonunun F.Mayılov adına Şorkənd kəndində 96 şagird yerlik modul tipli ümumi orta məktəbin quraşdırılması | 382,0 | 2022 |
| 14. | Sabirabad rayonunun Güdəcühür kəndində 56 şagird yerlik modul tipli ibtidai məktəbin quraşdırılması | 285,0 | 2022 |
| 15. | Şamaxı rayonunun Çöl Göylər kəndində 96 şagird yerlik modul tipli tam orta məktəbin quraşdırılması | 382,0 | 2022 |
| | **Cəmi:** | **5.000,0** | |

**Azərbaycan Respublikasının ərazisində quraşdırılması nəzərdə tutulan modul tipli məktəblərin siyahısı**

*Azərbaycan Respublikası Prezidentinin*
*2022-ci il 16 may tarixli*
*Sərəncamına əlavə*

| **Sıra №-si** | **Tədbirin adı** | **Ayrılan vəsait (min manatla)** | **İcra müddəti** |
|---|---|---|---|
| 1. | Astara rayonunun Diqo kəndində 56 şagird yerlik modul tipli ümumi orta məktəbin quraşdırılması | 285,0 | 2022 |
| 2. | Bərdə rayonunun Qaratəpə kəndində 20 şagird yerlik modul tipli ibtidai məktəbin quraşdırılması | 207,0 | 2022 |
| 3. | Biləsuvar rayonunun Əmənkənd kəndində 56 şagird yerlik modul tipli ümumi orta məktəbin quraşdırılması | 285,0 | 2022 |
| 4. | Cəlilabad rayonunun Vənlik kəndində 80 şagird yerlik modul tipli ümumi orta məktəbin quraşdırılması | 354,0 | 2022 |
| 5. | Cəlilabad rayonunun Söyüdlü kəndində 96 şagird yerlik modul tipli ümumi orta məktəbin quraşdırılması | 382,0 | 2022 |
| 6. | Cəlilabad rayonunun Həsənli kəndində 80 şagird yerlik modul tipli ümumi orta məktəbin quraşdırılması | 354,0 | 2022 |
| 7. | Xaçmaz rayonunun Mollabürhanlı kəndində 96 şagird yerlik modul tipli ümumi orta məktəbin quraşdırılması | 382,0 | 2022 |
| 8. | İsmayıllı rayonunun Çəmənli kəndində 80 şagird yerlik modul tipli ümumi orta məktəbin quraşdırılması | 354,0 | 2022 |
| 9. | İsmayıllı rayonunun Zərnava kəndində 80 şagird yerlik modul tipli tam orta məktəbin quraşdırılması | 354,0 | 2022 |
| 10. | Quba rayonunun Qələdüz kəndində 132 şagird yerlik modul tipli ümumi orta məktəbin quraşdırılması | 424,0 | 2022 |
| 11 | Lerik rayonunun Kəlvəz kəndində 56 şagird yerlik modul tipli tam orta məktəbin quraşdırılması | 285,0 | 2022 |
| 12. | Lerik rayonunun Anburdərə kəndində 56 şagird yerlik modul tipli ümumi orta məktəbin quraşdırılması | 285,0 | 2022 |
| 13. | Neftçala rayonunun F.Mayılov adına Şorkənd kəndində 96 şagird yerlik modul tipli ümumi orta məktəbin quraşdırılması | 382,0 | 2022 |
| 14. | Sabirabad rayonunun Güdəcühür kəndində 56 şagird yerlik modul tipli ibtidai məktəbin quraşdırılması | 285,0 | 2022 |
| 15. | Şamaxı rayonunun Çöl Göylər kəndində 96 şagird yerlik modul tipli tam orta məktəbin quraşdırılması | 382,0 | 2022 |
| | **Cəmi:** | **5.000,0** | |

**Füzuli Peşə Liseyinin binasının layihələndirilməsi və tikintisi ilə bağlı tədbirlər haqqında**

**Azərbaycan Respublikası Prezidentinin Sərəncamı**

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. Füzuli Peşə Liseyinin binasının layihələndirilməsi və tikintisi məqsədilə Azərbaycan Respublikasının 2022-ci il dövlət büdcəsində işğaldan azad olunmuş ərazilərin yenidən qurulması və bərpası üçün nəzərdə tutulan vəsaitdən Azərbaycan Respublikasının Təhsil Nazirliyinə ilkin olaraq 1,0 (bir) milyon manat ayrılsın.

2. Azərbaycan Respublikasının Maliyyə Nazirliyi bu Sərəncamın 1-ci hissəsində göstərilən məbləğdə maliyyələşməni təmin etsin.

3. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

**İlham Əliyev**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, 20 may 2022-ci il

**Şuşa şəhərində Şuşa Real Məktəbinin binasının layihələndirilməsi və bərpası ilə bağlı tədbirlər haqqında**

**Azərbaycan Respublikası Prezidentinin Sərəncamı**

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. Şuşa şəhərində Şuşa Real Məktəbinin binasının layihələndirilməsi və bərpası məqsədilə Azərbaycan Respublikasının 2022-ci il dövlət büdcəsində işğaldan azad olunmuş ərazilərin yenidən qurulması və bərpası üçün nəzərdə tutulan vəsaitdən Azərbaycan Respublikasının Təhsil Nazirliyinə ilkin olaraq 1,0 (bir) milyon manat ayrılsın.

2. Azərbaycan Respublikasının Maliyyə Nazirliyi bu Sərəncamın 1-ci hissəsində göstərilən məbləğdə maliyyələşməni təmin etsin.

3. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

**İlham Əliyev**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, 20 may 2022-ci il